**Kərim Arzu oğlu Sadıqov [63]**

# AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ ŞİFAHİ NİTQİN İNKİŞAF ETDİRİLMƏ YOLLARI

**Giriş.** İnsanın mədəni cəhətdən inkişaf etməsi və cəmiyyətə faydalı bir insan olması üçün nitq mədəniyyətini öyrənməsi çox önəmlidir. Orta məktəbin əsas məqsədlərindən biri şagirdlərin həm danışıq, həm də yazılı nitqini inkişaf etdirməkdir. Bu iş bütün təhsil prosesində həyata keçirilir. Məktəb, şagirdlərin nitqini inkişaf etdirmək üçün çox önəmli rol oynayır. Şagirdlər, təbiəti və insanların işlərini müşahidə edərək, dostları və başqaları ilə danışaraq, çox kitab oxuyaraq və müxtəlif çıxışlar edərək nitqlərini inkişaf etdirirlər. Burada məqsəd, onların gördükləri şeylər haqqında fikirlərini daha dəqiq ifadə etmələrini təmin etməkdir. Yəni, istifadə etdikləri sözlər, düşündükləri anlayışlarla uyğun olmalıdır. Nitq yalnız fikirləri ifadə etmə vasitəsi deyil, eyni zamanda onların yaranmasına kömək edən bir alətdir. Bu səbəbdən müəllim şagirdlərin nitqini inkişaf etdirərkən onların düşüncə qabiliyyətini də inkişaf etdirməyə çalışmalıdır. Şifahi ünsiyyət qaydalarına riayət etmədən, ədəbi dilin yazılı və şifahi formalarını yaxşı bilmədən, ünsiyyət zamanı məqsədlərə çatmaq üçün lazım olan vasitələri seçmək və təşkil etmək bacarığı olmadan normal nitq mədəniyyətini əldə etmək çətindir.

**Əsas hissə.** Məktəblilərdə düzgün, işlək nitq bacarıqlarının formalaşdırılması dil təliminin başlıca didaktik vəzifələrindəndir. Əslində, hər bir Azərbaycan dili və ədəbiyyat müəlliminin fəaliyyətinin nəticəsi onun şagirdlərinin əldə etdiyi nitq və yazı mədəniyyətinin səviyyəsi ilə ölçülür. Məktəbdə elə bir fənn, elə bir tədbir yoxdur ki, orada nitqə diqqət yetirilməsin. Lakin şagirdlərin nitqinin inkişafı yalnız məktəblə məhdudlaşmır, bu həm də ailə, məhəllə və küçədəki nitq mühiti ilə əlaqədardır. Valideynlərin və məktəbdənkənar müəssisələrdə çalışanların da əsas vəzifələrindən biri yeni nəslin nitq mədəniyyətinin formalaşmasına nəzarət etmək, ona kömək göstərməkdir. Orta məktəbdə şagirdlər qrammatik normalar ilə tanış olduqca həm də şifahi və yazılı nitqin bir sıra sirlərini öyrənirlər. Bütün bunlarla eyni zamanda şagirdlərin nitqinin zənginləşdirilməsi və düzgün qurulması üzrə məqsədyönlü işlər aparılmalıdır. Şagirdlərin nitqi praktik şəkildə mənimsəmələri üzrə iş bütün fənlərin tədrisində, həmçinin, evdə, tənəffüslərdə, sinifdənxaric məşğələlərdə, ictimai-faydalı işlərdə, əmək prosesində və s. getməlidir. Bu prosesdə uşağı başlı-başına buraxmaq, ünsiyyət zamanı nitqin öz-özünə inkişaf edəcəyinə ümid bəsləmək böyük yanlışlıq olardı. Hər bir müəllim şagirdlərə düzgün danışığı öyrətmə prosesində onların sözləri necə tələffüz etməsinə, fikri düzgün və dəqiq ifadə etmək üçün söz və ifadələri necə seçməsinə, vurğunu necə işlətməsinə, intonasiyaya, sürətə və s. fikir verməli, sezdiyi nöqsanları ehtiyatla düzəltməlidir. Məktəblilərin nitqinin inkişafı üzərində belə ardıcıl iş aparmadan, fikirlərini ifadə etmək üçün lazımi sözü və ifadəni diqqətlə seçməyi, fikri məntiqi cəhətdən düzgün qurmağı öyrətmədən istənilən nəticəni əldə etmək mümkün deyil.

Müasir dövrdə məktəblilərin nitq inkişafı, onların kommunikativ bacarıqlarının formalaşdırılması xüsusi həyati bacarıqlardan biri kimi mühüm əhəmiyyət kəsb edir. Məlumdur ki, müsair dövrdə məktəblərdə şəxsiyyətin inkişafı təlim prosesinin bütün koponentlərini, eyni zamanda kommunikativ bacarıqları əhatə edən şəxsiyyətyönümlü yanaşma ilə inkişaf edə bilər. Kommunikativ bacarıqlar dedikdə, ilk öncə şagirdlərin proqramın tələbləri dairəsində şəxsiyyətlərarası, mədəniyyətlərarası dialoqa girmək, konkret situasiyada ünsiyyəti, əməkdaşlığı reallaşdırmaq, dialoji və monoloji nitq bacarıqları nəzərdə tutulur. Aydındır ki, Azərbaycan dilinin bədii, obrazlı-emosional ifadə imkanları, leksik və frazeoloji əlvanlığı, üslubi çalarları söz sənətimizin kamil nümunələrində öz əksini tapır. Təsadüfi deyil ki, bədii üslub Azərbaycan ədəbi dili tarixində hər zaman aparıcı rol oynamış, hətta, müəyyən mərhələlərdə bütövlükdə ədəbi dili təmsil etmişdir. Bədii əsərlərimizin dili müasir xalq danışıq dilinin ən yaxşı keyfiyyətlərinin ifadəçisi olduğu üçün onun öyrənilməsi də şagirdə öz fikir və hislərini daha da ətraflı şəkildə ifadə etmək imkanı verir. Şagird bədii ədəbiyyatda dildən istifadənin müxtəlif imkanlarını əyani surətdə görür və bu da onun nitqinin inkişafına təsirsiz qalmır.

Azərbaycan Respublikasında ümumi təhsilin Milli Kurikulumu çərçivə sənədində qeyd edilir ki, “şifahi nitqin inkişafı əsas götürülməklə şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi, ünsiyyət bacarıqlarının formalaşdırılması, ən zəruri qrammatik anlayışların və dil konstruksiyalarının mənimsənilməsi, dinləyib-anlama vərdişlərinin inkişafı təmin olunur. Şagirdlərin bu zəmində ünsiyyət mədəniyyətinə və kommunikativ bacarıqlara sahib olmaları xüsusi əhəmiyyət kəsb edən məsələlərdəndir” [8, s. 46]. Bu baxımdan məktəblilərin psixoloji xüsusiyyətlərini nəzərə almaqla müxtəlif situasiyalarda tətbiq olunan şifahi və yazılı nitqə aid nümunələr, sual və tapşırıqlar sistemindən istifadə çox faydalıdır. Bunlar nəticə etibarilə şagirdlərin nitqini inkişaf etdirməyə – proqramın tələbləri səviyyəsində onların müxtəlif bacarıqlara – səsləri və sözləri düzgün tələffüz etmək, cümlə qurmaq, mətn tərtib etmək, məntiqi vurğuya, ifadəliliyə əməl etmək, informasiyanın məzmunu ilə əlaqədar hiss və həyəcanları, ideyanı çatdırmaq və s. yiyələnmələrinə imkan verir.

Məktəblilərin şifahi və yazılı nitqinin inkişaf etdirilməsi zamanı stimullaşdırma, nitq situasiyalarının zəmin rolu oynaması, mətn, əyanilik, texniki vasitələr, təsvir, nağıletmə və mühakimə səciyyəli

63 Bakı Slavyan Universitetinin magistrantı. https://orcid.org/0009-0009-7295-9169. nfyinb@gmail.com



tapşırıqlardan məqsədyönlü istifadə məsələlərinə xüsusi diqqət yetirilməlidir. Şagirdlərin nitqinin inkişaf etdirilməsi üçün müəllimin nümunəsi böyük rol oynayır. Azərbaycan dili və ədəbiyyat dərslərində müəllimin nitqi (ifadəli oxu, nağıletmə, məruzə, çıxış, dialoq və s.) şagirdlərə güclü təsir göstərir. Müəllimin nitqindəki məzmun, fikir zənginliyi, mövzuya dərin bələdlik, fonetik, leksik, qrammatik normaların gözlənilməsi şagirdlər üçün nümunəyə çevrilməlidir.

Nitq inkişafı zamanı orfoepik tələblər nəzərə alınmalıdır. Bu tələblər nitqə təbiilik, axıcılıq, canlılıq gətirir, onun estetik təsirini gücləndirir və fikrin asan qavranılmasına kömək edir. Söz ehtiyatının zənginləşdirilməsi nitqin inkişafı istiqamətində həyata keçirilən fəaliyyətin əsasını təşkil etsə də, başlıca nitq vahidi cümlə hesab edilir. Çünki hər kəs öz fikrini ayrı-ayrı sözlər şəklində yox, bitmiş cümlələr vasitəsilə ifadə edir. Bunu nəzərə alaraq məktəblilərin düzgün cümlə qurmaq vərdişlərinin inkişafına xüsusi diqqət yetirmək vacibdir. Cümlə qurmaq vərdişləri birinci sinifdən etibarən aparılır və şagirdlər sinifdən-sinfə keçdikcə bu vərdişlər inkişaf etdirilərək möhkəmlənirilir.

Təlim prosesində şagirdlərin düzgün cümlə qurmaq və eləcə də təfəkkürlərini inkişaf etdirmək üçün onların fəaliyyətini məzmundan formaya doğru yönəltmək daha faydalıdır. Bu zaman şagird əvvəlcə ifadə edəcəyi fikir üzərində düşünür, sonra isə onu müvafiq sintaktik konstruksiya ilə ifadə edir. Bu məqsədə nail olmaq üçün məktəbliləri müxtəlif çalışmalar üzərində işlətmək lazımdır. Məktəblilərin yazılı və şifahi nitqlərinin inkişafı Azərbaycan dilinin tədrisi metodikasında olduğu kimi, ədəbiyyatın tədrisi metodikasında da əsas istiqamətlərdən biridir. Ədəbiyyatçıların praktik işdə və metodistlərin nəzəri tədqiqatlarında həllinə çalışdıqları əsas vəzifələr şagirdlərin söz ehtiyatının zənginləşdirilməsi, səlis nitqin öyrədilməsi, ifadəliliyin inkişaf etdirilməsi və sairədir. Hər bir müəllim çalışmalıdır ki, yetişdirdiyi şagirdlər dilin təmizliyinə xələl gətirən hər cür kobud, ədəbsiz və müəyyən səbəbdən nitqdə işlənməsi qadağan sayılan hər hansı söz, ifadə və cümlələri evfemizmlərlə əvəz edərək, nəzakətli danışıq qaydalarına əməl edə bilsinlər. Nəzakətli danışıq üçün isə xalq arasında işlədilən “yüz ölçüb – bir biçmək”, “əvvəl düşünüb sonra danışmaq”, “sözü ağzında bişirib çıxarmaq” kimi fikirlərə əməl etmək lazımdır. Nitqin keyfiyyəti hər bir insanın inkişafı – əqli, əxlaqi, mənəvi, psixoloji səviyyəsi ilə şərtlənir və şəxsin mədəniyyətinin əsas göstəricilərindən birinə çevrilir [2].

Müasir dövrdə insanın fəaliyyətinin keyfiyyət səviyyəsi, nüfuz qazanması, təsir dairəsi ilk növbədə onun əqli, təfəkkürü və eyni zamanda bunların ifadə forması – nitq qabiliyyəti ilə müəyyən olunur. Məhz bu səbəbdən də son dövrlərdə təhsil sistemində nitq mədəniyyətinə diqqət artırılmış, orta məktəb dərsliklərində, elmi-tədqiqat əsərlərində bu məsələyə geniş yer verilməyə başlanmışdır. Böyüməkdə olan insanın şəxsiyyət kimi hərtərəfli inkişafı, onda yaradıcı sözə ehtiyac hissinin tərbiyə edilməsi üçün bədii-estetik və nitq fəaliyyətinin qarşılıqlı əlaqələrindən istifadə etmək sahəsində ədəbiyyat dərsləri üzrə məşğələlərin böyük imkanları vardır. Çünki burada “məktəblinin işi söz sənəti əsəri ilə bağlı olur” və “o sanki adi dil mühitindən çıxır və başqa bir dil mühitinə – yazıçının həyata estetik münasibətini ifadə etmək missiyasını öhdəsinə götürən bədii dil aləminə düşür” [1, s. 59].

Nitq mədəniyyəti anlayışı geniş məzmunludur. O, dilin qrammatik normalarına uyğun danışmaq, fikri aydın, səlis, məntiqli, yığcam, parlaq, təsirli ifadə etmək üçün uyğun sözlər seçmək, cümlələr qurmaq, sözlərin tələffüzündə orfoepiya qaydalarına riayət etmək, lüğət ehtiyatını, rabitəli nitqi, məqsəd və məzmuna, dinləyici və oxucunun xüsusiyyətinə uyğun üslub, danışıq və yazı tərzi seçmək bacarıqlarını və s. cəhətləri əhatə edir. Bunların formalaşmasında Azərbaycan dili və ədəbiyyat fənni xüsusi rol oynayır. Bu iki fənnə daxil olan bütün materialların öyrədilməsi prosesində şagirdin nitqinin inkişafına diqqət yetirilir. “Nitq mədəniyyəti – qrammatik cəhətdən cümlələri düzgün qurma, fikri aydın, dəqiq və məntiqi ardıcıllıqla, ədəbi bir dildə, bəzən tələffüz normalarını gözləməklə ifadə etməyi bacarmaq deməkdir” [3].

Şagirdlərin nitqi də bir sıra pedaqoji tələblərə – zənginlik, düzgünlük, məzmunluluq, məntiqi ardıcıllıq, aydınlıq, təmizlik, ifadəliliyə cavab verməlidir. Belə ki, nitqin dərin məzmunlu olması şagirdlərin danışığı, hadisə və əşyanı tanıması, nəqletmədə məzmunu aça bilməsindən çox asılıdır. Cümlədə sözlərin, mətndə cümlələrin düşünülmüş ardıcıllığı, fikirlərin plan üzrə, ardıcıl verilməsi nitqin məntiqiliyindən xəbər verir. Şagirdlərin sinonimlər cərgəsinə daxil olan sözlərdən məqamında istifadə etməyi bacarması nitqin dəqiqliyi deməkdir.

Ədəbi dilimizə yad olan söz və ifadələrin işlənməsinin qarşısının alınması nitqin təmizliyidir. Məktəblilərin yerli-yersiz başqa dillərdən, dialekt və şivələrdən, kobud, vulqar sözlərdən istifadə etməsi nitqin təmizliyini pozan hallardır. Çox zaman müəyyən məfhum, predmet və əşyaların dilimizdə öz adı olduğu halda onlar alınma sözlərlə ifadə edilir. Məsələn, sideniye (oturacaq), çaşka (fincan), slesar (çilingər), tekst (mətn), zontik (çətir), dokument (sənəd), lyustr (çilçıraq), krışa (dam), marojna (dondurma) və s. Danışıqda bu tipli sözlərin işlədilməsi dilimizə biganəlik və hörmətsizlikdən irəli gəlir. Əcnəbi dilə məxsus söz və ifadələrdən istifadə (i tak, k stati, toçno, znaçit, tem bolee, mejdu proçim, davay) nitqin təmizliyinə xələl gətirir, onun keyfiyyətini aşağı salır [4, s. 70-72]. Dinləyicilərin hisslərinə təsir edən, marağını artıran, diqqətini cəlb edən, irəli sürülən fikirlərin məzmununu daha yaxşı dərk etməyə kömək edən parlaq, kəskin, orijinal nitq ifadəli nitqdir. Şagirdlərə o müəllimlərin nitqi təsir edir ki, onların danışığı aydın, cəlbedici, tutarlı söz, ifadə və məzmunlu cümlələrdən ibarətdir.

**Nəticə.** Azərbaycan dili dərslərində şifahi nitqin inkişaf etdirilməsi tədrisin ən mühüm məqsədlərindən biridir. Şifahi nitq, şagirdlərin təhsil həyatında, həmçinin gələcək peşə fəaliyyətlərində

böyük rol oynayır. Bu məqsədlə müxtəlif metod və yollarla şifahi nitqin inkişafı təmin edilə bilər. Məktəblilərə düzgün tələffüz bacarıqlarının aşılanması şifahi nitqin inkişafı sahəsində vacib məqamlardan biridir. Bundan ötrü məktəbdə hamı tərəfindəb vahid nitq rejiminə əməl olunmalı, dərslərin hamısında nitqin düzgün, dəqiq və ifadəli olması ilə bağlı tələblər gözlənilməli, fonetik, leksik və qrammatik qaydalara riayət edilməlidir. Yəni təkcə Azərbaycan dili dərslərində deyil, bütün dərslərdə, o cümlədən, ədəbiyyat dərsində şagirdin orfoepik tələbləri pozaraq, sözü düzgün tələffüz etməməsi hallarının aradan qaldırılmasına səy göstərilməlidir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Abdullayev A.S. Müəllimin nitq mədəniyyəti haqqında // Azərbaycan dili və ədəbiyyat tədrisi, 1964, s. 60-64
2. Abdullayev N.Ə. Nitq mədəniyyətinin əsasları. Bakı: Elm və təhsil, 2013, 277 s.
3. Babayev A. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı, 2009, 237s.
4. Balıyev.H.B. Azərbaycandilinin tədrisi metodikası. Bakı: Qismət, 2014, 380 s.
5. Çobanov M. Müasir Azərbaycan dili. Nitq mədəniyyəti. Bakı, Elm və Təhsil, 2006, 412 s.

**Ключевые слова:** культура речи, уроки азербайджанского языка, навыки устной речи, школьники, обогащение словарного запаса.

**Keywords:** speech culture, Azerbaijani language lessons, oral speech skills, school children, vocabulary enrichment

## Пути развития устной речи на уроках Азербайджанского языка

**Резюме**

Для человека, чтобы развиваться культурно и стать полезным для общества человеком, очень важно овладеть культурой речи. Одной из главных целей средней школы является развитие как устной, так и письменной речи учащихся. Эта работа проводится на протяжении всего образовательного процесса. Школа играет очень важную роль в развитии речи учащихся. Учащиеся развивают свою речь, наблюдая за природой и трудом людей, общаясь с друзьями и другими людьми, читая много книг и произнося различные речи. Цель здесь заключается в том, чтобы они могли более точно выражать свои мысли о вещах, которые они видят. То есть слова, которые они используют, должны соответствовать понятиям, о которых они думают. Речь - это не только средство выражения мыслей, но и инструмент, который помогает им их формировать. По этой причине учитель должен стараться развивать мыслительные способности учащихся, развивая их речь. Трудно достичь нормальной культуры речи без соблюдения правил устного общения, без хорошего знания письменных и устных форм литературного языка, без умения выбирать и организовывать средства, необходимые для достижения целей в общении.

## Ways of developıng oral speech ın Azerbaıjan language lessons

**Summary**

It is very important for a person to develop culturally and become a useful person to society to learn speech culture. One of the main goals of secondary school is to develop both spoken and written speech of students. This work is carried out throughout the educational process. School plays a very important role in developing students' speech. Students develop their speech by observing nature and people's work, talking with friends and others, reading a lot of books, and making various speeches. The goal here is to ensure that they can express their ideas about the things they see more accurately. That is, the words they use should be consistent with the concepts they think about. Speech is not only a means of expressing ideas, but also a tool that helps them to form them. For this reason, the teacher should try to develop the thinking ability of students while developing their speech. It is difficult to achieve a normal speech culture without observing the rules of oral communication, without knowing the written and oral forms of the literary language well, without the ability to choose and organize the means necessary to achieve goals during communication.

**Rəyçi:** p.ü.f.d., dosent Hümbətova S.Ə.